AZƏRBAYCAN RESPUBLİKASI
ATÇILIQ FEDERASİYASI

# KONKUR YARIŞLARI TƏLİMATI

# 2014

**12.01.2014**

## MÜNDƏRİCAT


## BÖLMƏ 1: ÜMUMİ MÜDDƏALAR

**1.1.** Məqsəd, əhatə və təriflər

## BÖLMƏ 2: ƏSAS MÜDDƏALAR

**2.1.** Konkur yarışları

**2.2.** İdmançı və at kateqoriyaları

**2.3.** Azərbaycanda təşkil olunacaq yarışlar

**2.4.** Yarışlar üçün bildirişlərin verilməsi və qeydiyyat şərtləri

## BÖLMƏ 3: SON MÜDDƏALAR

**3.1.** Öhdəlik və məsuliyyət
**3.2.** Müddəalarda göstərilməyən hallar
**3.3.** Qüvvədən düşmə
**3.4.** Qüvvəyə minmə
**3.5.** İcra

## ƏLAVƏLƏR

**Əlavə 1.** Konkur idmançısının qeydiyyat forması (Forma N 1)
**Əlavə 2.** Sağlamlıq sənədi (Forma N 2)
**Əlavə 3.** Qonaq idmançının qeydiyyat forması (Forma N 3)
**Əlavə 4.** Beynəlxalq yarışlarda iştirak barədə arayış (Forma N 4)
**Əlavə 5.** Mükafatlandırılacaq atların bildirişi (Forma N 5)
**Əlavə 6.** Bildiriş forması (Forma N 6)
**Əlavə 7.** Konkur üzrə məşqçinin qeydiyyat forması (Forma N 7)
**Əlavə 8.** Təhlükəsizlik qaydaları
**Əlavə 9.** Yarış kateqoriyaları
**Əlavə 10.** İdmançı kateqoriyaları

# BÖLMƏ 1: ÜMUMİ MÜDDƏALAR

## 1.1. Məqsəd, Əhatə və Təriflər

**Məqsəd:** Bu təlimatın məqsədi atçılıq idmanının tanıdılması, sevilməsi, sevdirilməsi və ölkənin hüdudları daxilində yayılması yolu ilə milli inkişafını təmin etmək, beynəlxalq arenada istənilən müvəffəqiyyətləri əldə etmək hədəflərinə yönəlmiş, idman əxlaqı və idman nizam-intizamına sahib idmançıların yetişdirilməsi üçün lazımi qayda və əsasları təyin etməkdir.

**Əhatə:** Bu təlimat ölkə daxilində və xaricdə keçiriləcək olan milli və beynəlxalq rəsmi və xüsusi yarışlarda iştirak edəcək idmançılar ilə Azərbaycan Respublikası Atçılıq Federasiyası tərəfindən qeydiyyata alınmış klubların bütün idman fəaliyyətlərini əhatə edir.

**Təriflər:** Bu təlimatda istifadə edilmiş;

| | |
|---|---|
| **Beynəlxalq Federasiya (FEİ)** | : Beynəlxalq Atçılıq Federasiyası, |
| **Federasiya (ARAF)** | : Azərbaycan Respublikası Atçılıq Federasiyası, |
| **Klub** | : Vergilər Nazirliyi tərəfindən qeydiyyatdan keçmiş Federasiya tərəfindən qeydiyyata alınmış atçılıq idman qurumları və digər rəsmi qurum və quruluşların atçılıq komandaları, |
| **Yarış** | : Bir təşkilat komitəsinin rəhbərliyi və məsuliyyəti altında həyata keçirilən sadəcə bir dərəcələndirmə və mükafatlandırma ilə nəticələnən atçılıq bacarıqlarının yoxlanılması, |
| **Milli Yarışlar** | : Ölkənin sərhədləri daxilində tərtib olunan və yalnız Azərbaycan Respublikası Atçılıq Federasiyası tərəfindən xüsusi icazəyə malik idmançıların iştirak edə biləcəyi yarışlar, |
| **Təşkilat Komitəsi (OC)** | : Atçılıq Federasiyası tərəfindən bilinən və yarışların tərtibatını və məsuliyyətini üstlənmiş olan qurumlar, |
| **Qeydiyyat** | : Yarışlarda iştirak edən atların qeydiyyatı, |
| **Kateqoriya** | : Yarışın hansı idmançı və ya at sinifi üçün tərtibi, |
| **Yarış Vaxtı** | : Atçılıq Federasiyası və ya digər tərtibatçı qurumlar tərəfindən müəyyən edilmiş günlər içində bir neçə yarış, |
| **İdmançı** | : Bir klub tərkibində və ya fərdi olaraq idmançı anlayışı ilə milli və beynəlxalq qayda və taktikaları tətbiq edən və inkişaf etdirən, atı inamla mümkün qədər az qüvvə sərf edərək tam yerində və sakit vaxtında minmək bacarığına malik, xüsusi icazəsi olan idmançı. |

# BÖLMƏ 2: ƏSAS MÜDDƏALAR

## 2.1. Konkur Yarışları

Müxtəlif marşrutlar üzrə hazırlanmış maneələr üzərində idmançı və at cütlüyünün sınaqdan keçirildiyi və bu sayədə atın maneəyə qarşı olan diqqətini, sıçrayışdakı qüdrət, qabiliyyət və itaətini, idmançının isə tarazlıq, uyğunlaşma və yumuşaqlıq əsasları daxilindəki hissiyat və bacarığını ortaya çıxaran bir yarışdır.

### 2.1.1. Yarış Sinifləri

**Ümumi Yarış Yüksəklikləri:**
Azərbaycanda keçirilən yarışlar 80 sm-dən başlayır. Ən yüksək yarış 160 sm-dir. Hər bir yarış sinifi yüksəkliklərə görə müəyyən olunur və 5 sm yüksəldilərək keçirilir.

**Yarış Növləri:**

**Azərbaycan Respublikasının ərazisində keçirilən bütün konkur yarışlarının növləri və qaydaları Beynəlxalq Federasiyanın 1 Yanvar 2014-cü il tarixli “Konkur Yarışlarının Qaydaları”-nın 25-ci buraxılışının 12-ci bəndinin 260-282-ci maddələrnə əsasən müəyyən edilir.**

### 2.1.2. Yarışın Əsasları

Konkur yarışlarında marşrutda qoyulacaq maneələrin maksimum ölçüləri və sürətləri aşağıdakı cədvəldə göstərilmişdir:

| S/s | Maksimum hündürlük | Maksimum en | Su hovuzu | Sürət |
|---|---|---|---|---|
| 1 | 80 sm | 80 sm | - | 300-325 m/dəq |
| 2 | 85 sm | 90 sm | - | 300-325 m/dəq |
| 3 | 90 sm | 90 sm | - | 300-325 m/dəq |
| 4 | 95 sm | 100 sm | - | 325-350 m/dəq |
| 5 | 100 sm | 100 sm | - | 325-350 m/dəq |
| 6 | 105 sm | 110 sm | - | 350 m/dəq |
| 7 | 110 sm | 130 sm | - | 350 m/dəq |
| 8 | 115 sm | 130 sm | - | 350 m/dəq |
| 9 | 120 sm | 140 sm | - | 350 m/dəq |
| 10 | 125 sm | 140 sm | - | 350 m/dəq |
| 11 | 130 sm | 150 sm | - | 350 m/dəq |
| 12 | 135 sm | 150 sm | - | 350 m/dəq |
| 13 | 140 sm | 160 sm | - | 375-400 m/dəq |
| 14 | 145 sm | 160 sm | - | 375-400 m/dəq |
| 15 | 150 sm | 170 sm | - | 400 m/dəq |
| 16 | 160 sm | 170 sm | - | 400 m/dəq |

Marşrut dizayneri marşrutda Beynəlxalq Federasiyanın müvafiq təlimatında göstərilən sayda maksimal hündürlükdə maneə yerləşdirə bilər. Hər marşrut üçün nəzərdə tutulan maneə sayı yarışın əsasnaməsində göstərilir. Bütün bu ölçülərdə 5 sm-ə qədər fərq ola bilər.

### 2.1.3. Xüsusi Adlı Yarışlar

Tərtibatı əlaqədar təşkilatın icazəsinə bağlı aşağıda göstərilən yarışlar “Xüsusi Adlı Yarışlar” olaraq təyin olunur.

- ✓ Prezident Kuboku;
- ✓ Gənclər və İdman Nazirliyi Kuboku;
- ✓ Olimpiya Komitəsi Kuboku;
- ✓ Azərbaycan Çempionatı;
- ✓ Bakı Çempionatı;
- ✓ Azərbaycan Birinciliyi;
- ✓ Bakı Birinciliyi;
- ✓ ARAF Kuboku.

Xüsusi Adlı Yarışlar Federasiya və ya Federasiya tərəfindən təsdiq olunmuş Təşkilat Komitəsi tərəfindən tərtib olunur. Bu kubokların heç biri bir il ərzində bir dəfədən artıq keçirilə bilməz. Bu kubokların texniki şərtləri Federasiya tərəfindən müəyyən olunur.

## 2.2. İdmançı və At Kateqoriyaları

### 2.2.1. İdmançı Kateqoriyaları və Kateqoriya Azaltmanın/Artırmanın Əsasları

**Gənc İdmançılar (Junior) :** 15 yaşlarını doldurduqları gündən etibarən 18 yaşlarını doldurduqları təqvim ilinin sonuna qədər keçən yaş həddi içində olan idmançılardır. Gənc idmançılar 80 sm-dən 110 sm-dək (110 sm daxil olmaqla) bütün yarışlarda hər yaş at ilə iştirak edə bilərlər. Gənc idmançılar 17 yaşın içinə girdikləri il ərzində yetkin idmançılar üçün tərtib olunan yarışlarda iştirak edə bilər. Bu halda həmin idmançılara yetkin statusu tətbiq olunur. Gənc idmançı eyni yarış əsnasında həm gənc həm də yetkin idmançı olaraq yarışa bilməz. Gənc idmançılar (J) hərfi ilə qısaca adlandırılırlar.
**Yetkin idmançılar (Young Riders) :** 17 yaşına girmiş və 21 yaşını doldurduqları təqvim ilinin sonuna qədər keçən yaş həddi içində olan idmançılardır. 80 sm-dən 150 sm-dək (150 sm daxil olmaqla) bütün yarışlarda hər yaşda at ilə iştirak edə bilərlər. Bu idmançılar üçün xüsusi yarışlar tərtib olunduğundan yaşları gənc kateqoriyasına uyğun gələnlər gənclərlə, daha yaşlı olanlar yetkin idmançılarla yarışlarda iştirak edirlər. Yetkin idmançılar üçün Bölgə Birinciliyi və Azərbaycan Birinciliyi tərtib olunur. Qısaca (YR) hərifləri ilə adlandırılırlar.
**Yetkin İdmançılar : (Senior)**

**III Dərəcəli İdmançılar :** Təsnifat yarışlarında “Yüngül sinif” marşrutunda cərimə xalı almayan idmançılar layiq görülür. Qısaca (III İD) hərfləri ilə adlandırılır.

**II Dərəcəli İdmançılar :** “Çətin” sinif marşrutunda 4 cərimə xalından az xal toplayan və yaxud “Orta sinif” marşrutunda cərimə xalı almayan idmançılar layiq görülür. Qısaca (II İD) hərfləri ilə adlandırılır.

**I Dərəcəli İdmançılar:** Hündürlüyü 150 sm-ə qədər maneələri olan marşrutun 1-ci hissəsində 12 cərimə xalından az xal və yaxud 2-ci hissəsində 16 cərimə xalından az xal toplayan idmançılar; hündürlüyü 140 sm-ə qədər maneələri olan marşrutda 8 cərimə xalından az xal toplayan idmançılar; hündürlüyü 130 sm-ə qədər maneələri olan marşrutda 4 cərimə xalı almayan idmançılar layiq görülür. Qısaca (I İD) hərfləri ilə adlandırılır.

**İdman Ustalığına Namizəd:** Hündürlüyü 150 sm qədər maneələri olan marşrutun 1-ci hissəsində 8 cərimə xalından az xal və yaxud 2-ci hissəsində 12 cərimə xalından az xal toplayan idmançılar; hündürlüyü 140 sm-ə qədər maneələri olan marşrutda 4 cərimə xalından az xal toplayan idmançılar layiq görülür. Qısaca (İUN) hərfləri ilə adlandırılır.

**İdman Ustası:** Beynəlxalq yarışların şəxsi çıxışlarında 1-5-ci yerləri tutan idmançılar; Azərbaycan çempionatında 150 sm-lik və ondan yüksək maneələr olan marşrutda şəxsi çıxışda 1-ci yeri tutan və yaxud 145 sm-ə qədər maneələr olan marşrutda 1-ci yeri tutan idmançılar; hündürlüyü 160 sm qədər maneələri olan marşrutun 1-ci hissəsində 12 cərimə xalından az xal və yaxud 2-ci hissədə 20 cərimə xalından az xal toplayan idmançılar; hündürlüyü 150 sm-ə qədər maneələri olan marşrutun 1-ci hissəsində 4 cərimə xalından az xal və yaxud 2-ci hissədə 12 cərimə xalından az xal toplayan idmançılar; "Hündürlüyə tullanmaq" üzrə yarışlarda 160 sm-ə qədər maneələrin üzərindən tullanarkən cərimə xalları yığmayan idmançılar layiq görülür. Qısaca (İU) hərfləri ilə adlandırılır.

**Veteran idmançılar : Kişilər** üçün 45 yaşdan yuxarı və **qadınlar** üçün 40 yaşdan yuxarı C, B və A kateqoriyalı idmançılardır. Veteran idmançılar 90 sm-dən 130 sm-dək (130 sm daxil olmaqla) olan və həmin bu kateqoriyadan olan idmançılar üçün xüsusi olaraq keçirilən yarışlarda hər yaşda at ilə iştirak edə bilərlər. Hər hansı bir yarış təşkilatçılığında həmin bu kateqoriya üçün müsabiqə nəzərdə tutulmadığı halda öz kateqoriyalarından olan idmançılarla birgə yarışırlar. Qısaca (V) hərfi ilə adlandırılırlar.

**Kateqoriya Azaltmanın Əsasları :** Bir il əvvəlki mövsümdə heç bir yarışda iştirak etməyən II və III Dərəcəli idmançılar kateqoriyalarına sahib olan idmançılar bir dəfəlik ərizə ilə müraciət edərək bir aşağı kateqoriyaya keçə bilərlər. Yalnız bir daha ərizə vasitəsi ilə bir üst kateqoriyaya çıxa bilməzlər, yalnız kateqoriya yüksəltmə şərtlərini yerinə yetirərək bir üst kateqoriyaya yiyələnə bilərlər.

**2.2.2. At Kateqoriyaları**

Atların kateqoriyaları və kateqoriya yüksəltmə əsasları aşağıdakılardır:

**Kiçik At :** Hündürlüyü 149 sm və bundan aşağı olan atlardır.

**Dört Yaşlı Atlar :** Ölkə daxilində yetişdirilən və ya xaricdən gətirilən 4 yaşı olan atlardır. Bu atlar usta idmançılarla 80-120 sm arası yarışlarda iştirak edə bilərlər.

**Beş Yaşlı Atlar :** Ölkə daxilində yetişdirilən və ya xaricdən gətirilən 5 yaşı olan atlardır. Bu atlar usta idmançılarla 100-125 sm arası yarışlarda iştirak edə bilərlər.

**Altı Yaşlı Atlar :** Ölkə daxilində yetişdirilən və ya xaricdən gətirilən 6 yaşı olan atlardır. Bu atlar usta idmançılarla 110-130 sm arası yarışlarda iştirak edə bilərlər.

**Yeddi Yaşlı Atlar :** Ölkə daxilində yetişdirilən və ya xaricdən gətirilən 7 yaşı olan atlardır. Bu atlar usta idmançılarla 115 sm və daha yüksək yarışlarda iştirak edə bilərlər.

**Səkkiz və Yuxarı Yaşlı Atlar :** Ölkə daxilində yetişdirilən və ya xaricdən gətirilən 8 və daha artıq yaşı olan atlardır. Bu atlar usta idmançılarla 130 sm və daha yüksək yarışlarda iştirak edə bilərlər.

**Təsnifatdan kənar atçılıq şərtləri:**

Təsnifatdan kənar atçılıqla məşğul olmaq istəyən idmançılar dərəcələndirilmədən istənilən yarışda iştirak üçün yarışda iştirak haqqını (əgər tətbiq edilərsə) ödədikdən sonra qeydiyyatdan keçə bilərlər.

Bir idmançı hər hansı bir yarışda 3 at ilə iştirak edə bilər. Bir at bir gün ərzində 1 (bir) yarışdan artıq iştirak edə bilməz.

## Konkur Üzrə İdmançı Kateqoriyaları və İştirak Edə Biləcəkləri Hündürlüklər

| S/S | YARIŞIN HÜNDÜRLÜYÜ | İDMANÇI KATEQORIYALARI | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | İU | İUN | I İD | II İD | III İD | YR | G |
| 1 | 80 | 4 YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ |
| 2 | 85 | 4 YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ |
| 3 | 90 | 4 YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ |
| 4 | 95 | 4 YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ |
| 5 | 100 | 4-5 YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ |
| 6 | 105 | 4 YAŞ 5 YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ |
| 7 | 110 | 4-5-6 YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ |
| 8 | 115 | 4-5-6-7 YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ | - |
| 9 | 120 | 4-5-6-7 YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ | - |
| 10 | 125 | 5-6-7 YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ | HƏR YAŞ | - |
| 11 | 130 | 4-5 YAŞ XARİC HƏR AT | 4-5 YAŞ XARİC HƏR AT | 4-5 YAŞ XARİC HƏR AT | 4-5 YAŞ XARİC HƏR AT | - | HƏR YAŞ | - |
| 12 | 135 | 4-5-6 YAŞ XARİC ATLAR | 4-5-6 YAŞ XARİC ATLAR | 4-5-6 YAŞ XARİC ATLAR | 4-5-6 YAŞ XARİC ATLAR | - | HƏR YAŞ | - |
| 13 | 140 | 4-5-6 YAŞ XARİC ATLAR | 4-5-6 YAŞ XARİC ATLAR | 4-5-6 YAŞ XARİC ATLAR | - | - | HƏR YAŞ | - |
| 14 | 145 | 4-5-6 YAŞ XARİC ATLAR | 4-5-6 YAŞ XARİC ATLAR | 4-5-6 YAŞ XARİC ATLAR | - | - | HƏR YAŞ | - |
| 15 | 150 | 4-5-6 YAŞ XARİC ATLAR | 4-5-6 YAŞ XARİC ATLAR | 4-5-6 YAŞ XARİC ATLAR | - | - | HƏR YAŞ | - |
| 16 | 160 | 4-5-6 YAŞ XARİC ATLAR | - | - | - | - | - | - |

## 2.3. Azərbaycanda Təşkil Olunan Yarışlar

### 2.3.1. Federasiya Tərəfindən Təşkil Olunan Yarışlar

**Rayonlararası Yarışlar:** Atçılıq İdmanı ilə məşğul olan rayonlarda hər il "Konkur" üzrə keçirilən yarışlardır.

**Azərbaycan Birinciliyi Yarışları:**
İldə bir dəfə Federasiya tərəfindən seçilən yerlərdə konkur üzrə yeni idmançılar, yeniyetmə, gənc, yetkin, III dərəcəli idman kateqoriyalı , II dərəcəli idman kateqoriyalı, I dərəcəli idman kateqoriyalı və veteran idmançılar arasında keçirilən yarışlardır.

**Xüsusi Adlı Yarışlar**

Tərtibatı əlaqədar təşkilatların icazəsinə bağlı, 2.1.3 saylı maddədə göstərilən yarışlar "Xüsusi Adlı Yarışlar" olaraq təyin olunur.

**Prezident Kuboku:**
İldə bir dəfədən artıq olmayaraq Federasiya tərəfindən təyin olunan vaxtda və yerdə keçirilir.

**Gənclər və İdman Nazirliyi Kuboku:**
İldə bir dəfədən artıq olmayaraq Federasiya tərəfindən təyin olunan vaxtda və yerdə keçirilir.

**Olimpiya Komitəsi Kuboku:**
İldə bir dəfədən artıq olmayaraq Federasiya tərəfindən təyin olunan vaxtda və yerdə keçirilir.

**Azərbaycan Çempionatı:**
İldə bir dəfədən artıq olmayaraq Federasiya tərəfindən təyin olunan vaxtda və yerdə keçirilir.

**Bakı Çempionatı:**
İldə bir dəfədən artıq olmayaraq Federasiya tərəfindən təyin olunan vaxtda və yerdə keçirilir.

**Azərbaycan Birinciliyi:**
İldə bir dəfədən artıq olmayaraq Federasiya tərəfindən təyin olunan vaxtda və yerdə keçirilir.

**Bakı Birinciliyi:**
İldə bir dəfədən artıq olmayaraq Federasiya tərəfindən təyin olunan vaxtda və yerdə keçirilir.

**ARAF Kuboku:**
İldə bir dəfədən artıq olmayaraq Federasiya tərəfindən təyin olunan vaxtda və yerdə keçirilir.

### 2.3.2. Digər Qurumlar Tərəfindən Tərtib Olunan Yarışlar

**Bölgə Təmsilçilikləri:**
Ölkənin digər Şəhər və Rayonlarından (Bakı istisna olmaqla) lisenziyası olan idmançıların iştirak edə biləcəyi, Federasiya tərəfindən təsdiq olunmuş yarışlar keçirilə bilər. Bu yarışlara başqa şəhər və rayonlardan da idmançılar dəvət oluna bilər.

**Bölgə Birincilikləri:**
Digər Şəhər və Rayonlarda (Bakı istisna olmaqla) Federasiyanı təmsil edən təşkilatlar tərəfindən keçirilən yarışlardır.

### 2.4. Yarışlar üçün bildirişlərin verilməsi və qeydiyyat

**2.4.1.** Ölkə daxilində keçirilən yerli yarışların təqvimi və əsasnaməsi ilə tanış olduqdan sonra iştirak barədə bildirişin **(Forma N 6)** əsasnamədə göstərilmiş vaxtadək təqdim olunmasına idmançı və məşqçi məsuliyyət daşıyır.

**2.4.2.** Keçiriləcək yerli və beynəlxalq yarışlardan ən azı 15 (on beş) gün öncə federasiyanın rəsmi internet səhifəsində yarışın əsasnaməsi və digər şərtlər dərc edilir.

**2.4.3.** Yarışların əsasnaməsində göstərilən müddət ərzində bildirişlər ARAF-a təqdim olunmalıdır. Əsasnamədə qeyd edilən son tarixdən gec təqdim edilən bildirişlər qəbul olunmayacaqdır.

**2.4.4.** Təqdim edilən bildirişlər səlahiyyətli şəxs tərəfindən imzalanmalı və təsdiqlənməlidir. əks təqdirdə həmin bildirişlər qəbul edilməyəcəkdir.

**2.4.5.** Bildirişlərin bu Təlimata uyğun və vaxtında təqdim olunmasına idmançı və məşqçi məsuliyyət daşıyır.

**2.4.6.** ARAF tərəfindən təşkil olunan beynəlxalq yarışlarda növbəti gün üçün bildirişlərin yığılması məqsədilə təşkil olunan texniki iclaslarların dəqiq vaxtları yarışın təsdiqlənmiş əsasnaməsində və məlumat lövhələrində qeyd edilir. Həmin iclaslarda iştirak etmək və bildiriş formalarını (entry form) dolduraraq vaxtında təhvil verməyə idmançı və məşqçi məsuliyyət daşıyır. Vaxtında təqdim edilməyən bildirişlər qəbul edilmir.

**2.4.7.** ARAF-ın müvafiq qaydalarına əsasən yerli yarışlar üçün müəyyən edilmiş idmançıların və atların üzvlük haqları ödənildikdən sonra bu idmançı və atlar yarışlarda iştirak hüququ əldə edir. Üzvlük haqları ödənməyən idmançı və atların yerli yarışlarda iştirak barədə bildirişləri qəbul edilmir.

**2.4.8.** ARAF tərəfindən təşkil olunan beynəlxalq yarışların əsasnamələrində qeyd olunan yarışda iştirak haqları bildiriş forması ilə birgə federasiyaya ödənməlidir. Əks təqdirdə bildiriş qəbul edilmir.

**2.4.9.** Yerli yarışların hər hansı birində 3 (üç) atda çıxış edən idmançılar bildirişi təqdim edərkən hər hansı 2 (iki) atının mükafat üçün yazılmasını təsdiq edən formanı **(Forma N 5)** ARAF-a təqdim etməlidir. Əks təqdirdə həmin idmançıya mükafat ödənilməyəcəkdir.

**2.4.10.** Bu Təlimatda öz əksini tapmayan digər məsələlər yarışın əsasnaməsində qeyd edilə bilər. Yarışların əsasnamələri yarışların qaydalarını tənzimləyən sənəddir.

# BÖLMƏ 3: SON MÜDDƏALAR

### 3.1. Öhdəlik və Məsuliyyət

Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən atçılıq klubları, təsərrüfatlar və fərdi idmançılar bu qaydaların bəndlərində göstərilən şərtlərə əməl etməyə məsuliyyət daşıyır.

### 3.2. Müddəalarda Göstərilməyən Hallar

Bu təlimatda göstərilməyən hallar üzə çıxdığı zaman Beynəlxalq Federasiyanın qaydaları və Azərbaycan Respublikası Atçılıq Federasiyasının Nizamnaməsinin şərtləri tətbiq edilir.

### 3.3. Qüvvədən Düşmə

Bu təlimat təsdiqləndiyi tarixdən etibarən bundan əvvəlki bütün təlimatlar qüvvədən düşmüş hesab edilir.

### 3.4. Qüvvəyə Minmə

Bu təlimat təsdiqləndiyi tarixdən etibarən qüvvəyə minir.

### 3.5. İcra

Bu təlimatın müddəalarını Azərbaycan Respublikası Atçılıq Federasiyası icra edir.